**Fransanın Azərbaycandakı Səfirliyinin Qadın/Kişi BƏRABƏRLİYİ MÜKAFATI üçün müsabiqəsinin QAYDALARI - 2020**

Qadın-kişi bərabərliyi Fransa xarici siyasətinin prioritetidir. Hər yerdə qadınların cəmiyyətdəki yeri gücləndirilməlidir.
Buna görə ***Fransanın Azərbaycandakı Səfirliyi*** ilk dəfə olaraq 2020-ci ildə işləri və fəaliyyətlərilə gələcək perspektivi olan bir gənc qadına ***«Qadın-kişi bərabərliyi mükafat»*** ını təqdim edəcəkdir.
Qalib Fransaya yüksək keyfiyyətli təlim və qadın hüquqlarına dair görüşlərə həsr olunacaq qısa müddətli səfər qazanacaqdır.

« Fransanın Azərbaycandakı Səfirliyinin Qadın-Kişi Bərabərliyi Mükafatı » müsabiqəsinin namizədləri aşağıda göstərilən qaydalara riayət etmək və təşkilatçıların qərarlarına əməl etmək öhdəliyini öz üzərilərinə götürürlər.

## 1. Müsabiqənin təşkili

Müsabiqə Fransanın Azərbaycandakı Səfirliyi tərəfindən təşkil edilir.
Müraciət etmə mərhələsi 30 sentyabr 2020-ci ilə qədər açıqdır (müraciət üçün son tarix).
Finalda iştirak etmək üçün ən yaxşı müraciətlər əsasında beş ilk namizəd Fransa Səfirliyi tərəfindən seçiləcəkdir.
Münsiflər heyəti (5 nəfər, 3 qadın və 2 kişidən ibarət) qarşısında final **2020-ci ilin oktyabr ayının əvvəlində** keçiriləcəkdir.
Son təqdimat və mükafatın qalibə təqdim edilməsi **2020-ci ilin oktyabr ayının ortalarında** baş tutacaqdır.

## 2. Müsabiqəyə qatılma

Müsabiqə 18 yaşdan 40 yaşa qədər olan Azərbaycan vətəndaşlığı olan qadınlar üçün açıqdır. İştirakçılar fransız dilli və / və ya ingilis dilli olmalıdır.
Yalnız tam və iştirak tarixi və vaxtından əvvəl təqdim edilmiş müraciətlərə baxılacaqdır.
Hər bir iştirakçı müsabiqənin tam qaydalarını və prinsiplərini oxuduğunu və qeyd-şərtsiz qəbul etdiyini bəyan edir.

## 3. İştirak qaydaları

Namizədlər fransız və ya ingilis dillərində aşağıda təqdim olunan elementlərdən ibarət sənədləri təqdim etməlidirlər:

- CV
- Müsabiqəyə marağı ifadə edən niyyət məktubu
- Layihənin yazılı təqdimatı (Maksimum 2 səhifə + Ölçü məhdudiyyəti olmayan əlavələr: şəkillər, videolar, press-book, və s.).
- Müsabiqə qaydaları ilə tanış olma və qəbul edilməsini təsdiq edən məktub
- Müraciət edən şəxsin dəqiq koordinatları (mail ünvanı, telefonu, poçt ünvanı və s.)
- Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsinin surəti.

## 4. Layihə

Namizədlər özləri həayat keçirdikləri və sahibi olduqları layihəni təqdim etməyə dəvət olunurlar.
Namizədlər tərəfindən təqdim edilən layihə həyata keçirilmə mərhələsində olan layihə olmalıdır.
Buna görə də, layihənin artıq başlanmasını nümayiş etdirmək lazımdır.
Təqdim edilən layihə aşağıda göstərilən mövzulardan birinə dair olmalıdır:

- **Lider qadınların** təşviqi : müəsissədə, iş bazarında qadınların yerinin möhkəmləndirilməsi;
- **Qadın zorakılığına qarşı** mübarizə;
- **Gender stereotiplərinin** qiymətləndirilməsi;
- **Yaradıcı qadınların** təşviqi: artist, rejissor, moda yaradıcısı, memar və s. qadınlara dəstək.

## 5. Seçim

Seçim prosesi iki mərhələdə keçiriləcək :

Birinci mərhələnin sonunda 30/09/2020-ci il tarixinə qədər edilən bütün müraciətlər arasından beş namizəd seçiləcəkdir.
Onlar layihələrini Fransa səfirliyinə 2020-ci il oktyabrın əvvəlində təqdim etməyə dəvət olunacaqlar. Şifahi təqdimat (fransız və ya ingilis dillərində) ən çox 10 dəqiqə davam edəcək və sonra münsiflər heyətinin sualları olacaqdır. Layihənin daha yaxşı təqdim etmək üçün müxtəlif vəsaitlərdən (fotoşəkillər, videolar, power point və s.) istifadə mümkündür.
Mükafat münsiflər heyyətinin məsləhətləşməsindən sonra oktyabr ayı ərzində elan və təqdim olunacaq.

### 6. Mükafat

Münsiflər heyəti tərəfindən təqdim olunacaq mükafat, Fransada qadın hüquqları mövzusunda bir təlim səfəri olacaq (ehtimal ki, Parisin politologiya institutunda). Təyyarə bileti, təlim, Fransada qalma xərci Fransa Səfirliyi tərəfindən ödəniləcəkdir.

### 7. İctimailəşmə

Fransa Səfirliyinin Qadın/Kişi Bərabərliyi Mükafatının qalibi adının ictimailəşməsinə razılıq verir və bu layihəni Azərbaycan və Fransa mətbuatına təqdim etməyə dəvət olunacaqdır.

### 8. Müraciət etmə

Müraciət üçün sənədlər qaydaya uyğun tərtib olunmalı və aşağıdakı ünvana ən geci 30 sentyabr 2020-ci il tarixinə qədər göndərilməlidir :

« Qadın/Kişi Bərabərliyi Mükafatına » müraciət üçün sənədlər - Application File to « Equality Gender Prize »
Əməkdaşlıq və Mədəniyyət işləri üzrə Müşaviri, Cənab Jérôme KELLE diqqətinə - To Jérôme Kelle, Cultural and Cooperation Counsellor
Fransanın Azərbaycandakı Səfirliyi - Embassy of France to Azerbaijan
Rəsul Rza küçəsi 9
AZ 1000 Bakı – BP 36